"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

Heydər Əliyev - xalq birliyi əbədidir!

AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır İctimai-siyasi qəzet | № 21 (1062) | 11 oktyabr 2019-cu il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı



İlham Əliyev Moldova Prezidenti İqor Dodon ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Aşqabadda Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüşüb.

Prezident İqor Dodonu salamlayan Prezident İlham Əliyev dedi:

- İqor Nikolayeviç, Sizi görməyimə şadam. Bizim ikitərəfli gündəliyimizə dair fikir mübadiləsi üçün yaxşı imkan yaranıb. Mən bizim görüşlərimizi, o cümlədən Bakıdakı görüşümüzü xatırlayıram. O vaxt biz ikitərəfli əməkdaşlığın geniş spektrini müzakirə etdik, münasibətlərimizin inkişafına ciddi təkan verdik. Sıx qarşılıqlı fəaliyyətin davam edəcəyinə ümid bəsləyirik. Bizim fəal əməkdaşlıq edə biləcəyimiz mövzular, sahələr çoxdur. Əsas odur ki, ölkələrimiz arasında dostluq münasibətləri həm ticari-iqtisadi sahədə, həm investisiya sferasında və bütün başqa sahələrdə qarşılıqlı fəaliyyəti inkişaf etdirmək üçün yaxşı bazadır. Moldova bizə yaxın, dost dövlətdir. Düşünürəm ki, bugünkü fikir mübadiləsi də faydalı olacaq. Zənnimcə, əlaqələrimizin inkişafına yeni təkan verəcəyik.

İlham Əliyev Türkmənistana işgüzar səfərə gəlib

Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Türkmənistana işgüzar səfərə gəlib.

Aşqabad Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi MDB İcraiyyə Komitəsinin sədri-icra katibi aparatının rəhbəri Sergey Burutin, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Esenmurad Orazgeldiyev və digər yüksək vəzifəli şəxslər qarşıladılar.

Prokurorluq işçilərinin peşə bayramı qeyd olundu

Bu il oktyabr ayının 1-də ölkəmizin hər yerində prokurorluq işçilərinin peşə bayramı qeyd olundu. Ağstafa rayon prokurorluğunun işçiləri də peşə bayramını yüksək səviyyədə qeyd etdilər. Bununla əlaqədar rayon prokurorluğunda və Ağstafa Heydər Əliyev Mərkəzində tədbirlər keçirildi.

Rayon prokurorluğunun işçiləri rayonun hüquq-mühafizə orqanlarının işçiləri ilə birlikdə Heydər Əliyev Mərkəzinin önündə ümummilli liderin ucaldılmış abidəsi önündə tər-çiçək dəstələri qoydular, dahi şəxsiyyətə ehtiramlarını göstərdilər. Tədbir iştirakçıları sonra Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və yaradıcılığından bəhs edən filmə baxdılar. Tədbirdə rayonun hüquq-mühafizə orqanları işçiləri ilə birgə idarə, müəssisə, təşkilat rəhbərləri və rayon ağsaqqalları da iştirak etmişdir.

Təkliflər qəbul olundu

Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev növbəti səyyar qəbul-görüşü Dağkəsəmən kəndində keçirdi. N. Quliyev görüşdə çıxış edərək kənd sakinlərini salamlayıb, keçirilən görüşün məqsəd və əhəmiyyətindən danışıb. İstər kəndlərdə, istərsə də şəhərdə keçirilən səyyar görüşlərin vətəndaşları narahat edən məsələlərin həllinə yönəldiyini bildirib.

Rayon rəhbəri bu görüşün də mövcud vəziyyəti öyrənərək həlli mümkün olan məsələləri operativ şəkildə yerindəcə həll etmək, ehtiyac olduğu halda isə aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırmaqdan ibarət olduğunu diqqətə çatdırıb.

Bütün görüşlərdə olduğu kimi, bu görüşdə də son illər respublikamızda, eləcə də bölgələrimizdə olan inkişafdan, qazanılan uğur və nailiyyətlərdən söz açılıb. İcra başçısı əhalinin maddi və sosial rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən məqsədyönlü layihələrdən, xüsusilə də bu sahə ilə bağlı imzalanmış sərəncamlardan, qarşıda duran vəzifələrdənn danışıb. Qeyd edib ki, imzalanmış həmin sərəncamlar bir daha onu göstərdi ki, bu gün ölkə başçısı tərəfindən yürüdülən məqsədyönlü dövlət siyasətinin təməlində vətəndaş amili və xalqın rifah halı dayanır.

Tədbirdə Dağkəsəmən kənd İƏD nümayəndəsi Fazil Bayramov kənddə görülən işlər haqqında məlumat verdi. Görüş zamanı kənd sakinləri çıxış edərək dövlət başçısı cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə edərək ölkədə aparılan sosialyönümlü islahatlardan və ərazidə həyata keçirilən layihələrdən məmnun olduqlarını bildirdilər. Görüşdə icra başçısı vətəndaşları narahat edən məsələləri dinlədi, onların təkliflərini qəbul etdi. Məsələlərin operativ qaydada həll olunması istiqamətində aidiyyəti üzrə müvafiq idarə, müəssisə rəhbərlərinə tapşırıqlar verdi.

İ. Əliyev

Problemlər nəzərə alındı

Vətəndaşlara diqqət və qayğı göstərilməsi, onların problemlərinin, üzləşdikləri çətinliklərin həll edilməsi, şikayətlərinə baxılması ra-

yon rəhbərlərinin qarşılarında duran ən mühüm məsələlərdən biridir. Bu baxımdan ölkənin hər yerində olduğu kimi, Ağstafada da ardıcıl tədbirlər keçirilir. Belə tədbirlərdən biri də Rayon icra hakimiyyəti başçısının yaşayış yerlərində vətəndaşlarla görüşlər keçirməsi, səyyar qəbulların təşkil olunmasıdır. Bu günlər rayonun Həsənsu kəndində belə bir tədbir keçirilmiş, kənd sakinləri ilə görüş təşkil olunmuşdur.

Kənd mədəniyyət evində keçirilən görüşü Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev açmışdır. O, görüşdə çıxış edərək son dövrlərdə ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində aparılan genişmiqyaslı işlərdən ətraflı danışmışdır. N. Quliyev görüşdə rayonda aparılan abadlıq-quruculuq işlərindən də məlumat vermiş və qeyd etmişdir ki, belə tədbirlər Ağstafada müntəzəm olaraq davam etdiriləcəkdir.

Tədbirdə kənd icra nümayəndəsi Vəkil Vəliyev, bələdiyyə sədri Nizami İsgəndərli yığıncaq iştirakçılarına son bir ildə kənddə görülən işlər barədə məlumat vermiş, qarşıda duran problemlərdən danışmışdır.

Rayon icra hakimiyyətinin başçısı N. Quliyev görüş iştirakçılarına müraciət edərək onları narahat edən problemlərdən danışmağı bildirdi. Bundan sonra kənd sakinləri Yolçu Vəliyev, Rəşid Abbasov, Fidail Qurbanov və başqaları çıxış edərək bildirdilər ki, kənddəki qaz boruları köhnə olduğuna görə qazın təzyiqi artanda təhlükəli vəziyyət yaranır. Qeyd olundu ki, kənd ictimaiyyəti əsasən kəhriz sularından içməli su kimi istifadə edirlər. Lakin kəhriz quyuları bəzi yerlərdə yararsız hala düşdüyündən içməli sudan istifadə olunmasında müəyyən problemlər yaranmışdır. Bundan əlavə kəndin bəzi yerlərində pay torpaqları zəbt olunmuşdur ki, bu da ictimaiyyət arasında bəzi narazılıqlar yaratmışdır.

Görüşün sonunda Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev çıxş edərək bildirdi ki, qaldırılan problemlərin imkan daxilində həll olunması üçün tədbirlər görüləcəkdir. Bununla əlaqədar müvafiq idarə, müəssisə rəhbərlərinə tapşırıqlar verildi.

İbrahim Əliyev

Ahıllar həmişə yad edilirlər

Hər il oktyabr ayının 1-də dünyanın bir çox ölkələrində olduğu kimi, respublikamızda da Beynəlxalq Ahıllar Günü geniş qeyd edilir. Müstəqil Azərbaycan dövləti və onun müdrik Prezidenti cənab İlham Əliyev ehtiyacı olan vətəndaşlara, o cümlədən ahıllara xüsusi diqqət və qayğı ilə yanaşır. Bu diqqət və qayğı Ağstafada da hər zaman açıq-aşkar duyulur. Ahılların rahat yaşaması, ehtiyaclarının ödənilməsi üçün rayonumuzda lazımi tədbirlər görülür, mühüm işlər həyata keçirilir.

Ənənəyə uyğun olaraq bu il də Ahıllar günü qeyd olunmuşdur. Bu dəfə ahıllarla görüş rayon Ağsaqqallar Şurasının sədri, Yenigün kəndində yaşayan Firdovsi Heydərlinin evində keçirilmişdir.

Nizaməddin Quliyev görüşdə qeyd etmişdir ki, hər zaman öz vətəndaşlarının, xüsusilə ahıl və tənha adamların rifahını düşünən dövlət başçımızın fərman və sərəncamları həssas qruplara dövlət qayğısının əhəmiyyətli dərəcədə artmasına imkan yaradır. Biz əminik ki, ölkə başçısının ahıl insanlara göstərdiyi qayğı və diqqət və qayğı daha da artacaq, onların sosial müdafiəsi daha da gücləndiriləcəkdir.

Rayon Ağqsaqqallar Şurasının sədri Firdovsi Heydərli görüşdə iştirak edən ahılların adından çıxış edərək Rayon icra hakimiyyəti aparatının bütün rəhbərlərinə, hüquq-mühafizə orqanlarının başçılarına, rayonun ahıllarına, bütün ağsaqqallarına göstərdikləri qayğı və diqqət, mehribanlıq və əhəmiyyət üçün dərin minnətdarlığını bildirmiş, Ağstafanın daha da çiçəklənməsi, əhalinin maddi rifahının getdikcə yüksəldilməsi naminə daha böyük uğurlar arzulamışdır.

Axırda Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev görüşdə iştirak edən ahıllara bayram hədiyyələri təqdim etmişdir.

Ağstafada "Müəllimlər günü" qeyd olundu

Ölkəmizin hər yerində olduğu kimi, Ağstafada da "Müəllimlər günü" təntənəli şəkildə qeyd olundu. Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə Rayon icra hakimiyyətinin başçısı cənab Nizaməddin Quliyev açaraq beynəlxalq müəllimlər günü münasibətilə hər bir müəllimi ürəkdən təbrik etdi. Bildirdi ki, Ulu öndər Heydər Əliyev təhsil sahəsində geniş islahatlar kursu həyata keçirmiş, həmişə müəllim əməyinə yüksək qiymət vermiş, müəllim haqqında xoş sözlər söyləmişdir. O, deyirdi: "Hər birimizdə müəllimin hərarəti, qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbrlə bizə öyrətmiş və öyrədir". Dahi rəhbərimizin bu fikri müəllimin cəmiyyətdə yeri və rolunu dəqiq ifadə edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son illərdəki fəaliyyəti onun ulu öndərimizin əsasını qoyduğu mütərəqqi elm və təhsil ənənələrini və yeni dövrün tələblərinə uyğun zənginləşdirdiyini göstərir. Bu gün milli təhsilimizin inkişafı məsələsi öz məzmununu dəyişərək, artıq həm də Azərbaycannın gələcək inkişaf modelinin əsasını formalaşdıran başlıca amil kimi gündəmə gətirilmişdir. Məhz Prezident İlham Əliyevin qayğısı nəticəsində orta məktəblərdə təhsilin səviyyəsi yüksəlmiş, müəllim və şagirdlər üçün maddi-texniki bazanın gücləndirilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır.

Rayonun təhsil sahəsində son illər dövlət büdcəsi hesabına yeni məktəb binalarının tikintisi və əsaslı təmir işləri aparılmışdır. 264 şagird yerlik Böyük-Kəsik kənd tam orta məktəbinin tikintisi başa çatmış və yeni dərs ilində istifadəyə verilmişdir. 642 şagird yerlik Muğanlı kənd tam orta məktəbinin əsaslı təmir işlərinə və 96 şagird yerlik Yaradullu kənd orta məktəbində modul tipli məktəbin quraşdırılması işlərinə başlanılmışdır. Ümumilikdə son illərdə 18 məktəb tikilmiş, 7 məktəb əsaslı təmir olunmuşdur. Daha 7 məktəbin tikintisinə və 8 məktəbin əsaslı təmirinə ehtiyac vardır. Gələcəkdə də bu sahədə işlərimizi ardıcıl olaraq aparacağıq. Tədbirdə Rayon Təhsil Şöbəsinin müdiri Kamran Abbasov, Əməkdar müəllim İndira Səmədova, Zəlimxan kənd tam orta məktəbin direktoru Qalib Cəfərov və başqaları çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına öz minnətdarlıqlarını bildirdilər.

Daha sonra fəaliyyətində fərqlənən bir qrup təhsil işçisinə Ağstafa rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı təqdim olundu.

Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında Azərbaycan Respublikası Baş prokurorunun 01.11.2010-cu il tarixli 10/100№-li əmrinə əsasən 2019-cu ilin 4-cü rübündə vətəndaşların yaşayış və iş yerləri

Sıra №-si	Yaşayış və iş yeri	Qəbul günü	Qəbul saatı	Qəbulu aparan şəxsin vəsifəsi, adı və soyadı	Qeyd
1	Ağstafa rayonu Sadıxlı kəndi	12 oktyabr	15:00	Prokuror Aslan Surxayev	
2	Ağstafa rayonu Ağ Göl kəndi	26 oktyabr		Prokurorun böyük köməkçisi Emil Qurbanov	
3	Ağstafa rayonu Düz Qışlaq kəndi	09 noyabr		Prokuror köməkçisi Rəhim Hüseynli	
4	Ağstafa rayonu Yuxarı Göycəli kəndi	23 noyabr		Prokuror Aslan Surxayev	
5	Ağstafa rayonu Poylu kəndi	07 dekabr		Prokurorun böyük köməkçisi Emil Qurbanov	
6	Ağstafa rayonu Dağ Kəsəmən kəndi	21dekabr		Prokuror köməkçisi Rəhim Hüseynli	

Ağstafa gəncləri növbəti hərbi xidmətə yola salındı

"Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə bağlı Ağstafa rayonunda gənclərin hərbi xidmətə yola salınması münasibətilə geniş tədbir keçirildi. Tədbirdə Ağstafa rayon İcra Hakimiyyətinin başçısı cənab Nizaməddin Quliyevin iştirakı ilə Rayon icra hakimiyyəti başçısının müavinləri, şöbə müdirləri, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəhbərliyi və zabitləri, Böyük Vətən müharibəsi veteranları, rayon ağsaqqalları və Qarabağ müharibəsi əlilləri, yerli icra nümayəndələri, bələdiyyə sədrləri, çağırışçı gənclər və rayon ictimaiyyətinin nümayəndələri iştirak etdi.

Tədbir iştirakçıları ilk öncə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdilər, abidənin önünə gül dəstələri qoydular, ulu öndərə hörmət və ehtiramlarını bildirdilər.

Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev tədbirdə çıxış edərək hərbi xidmətə yola salınan gəncləri təbrik etdi. Onları vətənin müdafiəsi kimi müqəddəs işdə ayıq-sayıq olmağa çağırdı, komandirlərin tələblərinə əməl etməyi, ölkəmizin ərazi bütövlüyünü möhkəm qorumağı, hərb işinin sirlərinə mükəmməl yiyələnməyi tövsiyə etdi. Azərbaycan ordusunun yaranma tarixindən, ölkə başçısı cənab İlham Əliyevin Silahlı Qüvvələrimizin daha da inkişaf etdirilməsi, möhkəmləndrilməsi istiqamətində gördüyü böyük işlərdən danışdı.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəisi Nazim Çələbiyev tədbirdə məruzə edərək bildirdi ki, cənab Prezidentin Sərəncamına uyğun olaraq vətəndaşların həqiqi hərbi xidmətə çağırışı ilə əlaqədar təşkilati tədbirlər həyata keçirilir, çağırışçıların hər biri artıq hansı hərbi hissədə qulluq keçəcəklərini qabaqcadan bilirlər. N. Çələbiyev yola salınan gənclərə tövsiyələrini bildirərək onlara uğurlu xidmət arzuladı.

Daha sonra hərbi xidmətə yola düşən gənclərin valideynləri çıxış edərək, övladlarının hərbi xidmətə yola düşmələrindən qürur duyduqlarını və onlara vətənin layiqli əsgərləri olmalarlnl tövsiyə etdilər.

Valideynlər adından çıxış edən Azad Hadıyev övladının hərbi xidmətə yola düşdüyünə görə qürur duyduğunu bildirdi. Silahlı Qüvvələrimizin qüdrəti ilə fəxr etdiyini deyib bu gün xidmətə yola düşən çağırışçıların da Azərbaycan əsgəri adını uca tutacaqlarına əminliyini bildirdi.

Sonda çağırışçılar müqəddəs Quran kitabının altından keçərək dövlət bayrağını öpüb hərbi hissələrə yola salındılar.

Milli Məclisin deputatı Ülviyyə Ağayeva Ağstafada seçicilərlə görüşüb

Milli Məclisin deputatı Ülviyyə Ağayeva Ağstafa rayon icra hakimiyyəti başçısının müavini Lalə Eyyubova ilə birlikdə Vurğun qəsəbəsi, Həsənsu və Köçəsgər kəndlərində kənd sakinləri ilə görüşüb, onların qayğıları ilə maraqlanıb. Ü. Ağayeva həmin kəndlərdə yerləşən körpələr evi-uşaq bağçalarında, eləcə də tibb məntəqələrində olmuş və həmin məntəqələrdə yaradılan şəraitlə tanış olmuşdur.

Həsənsu kəndində keçirilən görüşdə Milli Məclisin deputatı Ülviyyə Ağayeva çıxış edərək son illər ölkə rəhbəri cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində respublikamızın bütün bölgələrinin, o cümlədən də Ağstafa rayonunun gündən-günə inkişaf etdiyini qeyd edib.

Ağstafa rayon icra hakimiyyəti başçısının müavini Lalə Eyyubova çıxış edərək "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq son zamanlarda rayon rəhbərliyinin diqqət və qayğısı sayəsində Ağstafada görülən işləri, istifadəyə verilən sosial obyektləri, eləcə də yeni iş yerlərinin yaradılmasını, kənd təsərrüfatının inkişaf etdirilməsini, əhalinin maddi rifah halının yaxşılaşdırılmasını, tikinti-quruculuq işlərinin gündən-günə artmasını ölkəmizdə, eləcə də bölgələrimizdə olan inkişafın əyani sübutu kimi qiymətləndirib.

Lalə Eyyubova Prezident İlham Əliyevin siyasətinin əsasını təşkil

edən vətəndaş amilinin Ağstafa rayonunda hər zaman ön plana çəkildiyini bildirib. Bu gün Milli Məclisin deputatı Ülviyyə Ağayevanın sakinlərlə keçirdiyi görüşü, sakinlərin qayğıları ilə maraqlanmasını vətəndaşlara olan qayğının bariz nümunəsi kimi qeyd edib.

Görüş zamanı vətəndaşlar tərəfindən bir çox məsələlərin yerində həll olunması üçün müvafiq tapşırıqlar verilmiş və aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmışdır. Kənd sakinlər bugünkü görüşün dövlətin, ölkə rəhbərinin vətəndaşına olan qayğısının daha bir əyani sübutu olduğunu qeyd edərək onlarla görüşə gəldiyinə görə Ülviyyə xanıma minnətdarlıqlarını bildiriblər.

Q.Qurbanov

Təbrik edirik!

Əsl müəllim, gözəl pedaqoq

Bir neçə gün əvvəl rayonumuzun müəllimlər ordusuna yeni bir sevinc nəsib olmuşdur. Beynəlxalq Müəllimlər Günü münasibətilə respublikanın bir qrup qabaqcıl müəlliminə Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adı verilmişdir. Bu yüksək mükafata layiq görülənlər arasında Ağstafa şəhər 2 saylı tam orta məktəbinin müəllimi Yeganə Əfəndiyeva da vardır.

Bütün Ağstafa ziyalıları üçün belə bir fərəhli gündə Yeganə Əfəndiyevanı hamıya yaxından tanıtmaq yerinə düşərdi.

Yegan Cavanşir qızı Əfəndiyeva 1967-ci ildə rayonumuzun indiki Qaçaq Kərəm kəndində anadan olmuşdur. O, 1983-cü ildə Ağstafa şəhərindəki S. Şükürova adına 24 nömrəli dəmiryol məktəbində orta təhsilini başa vuraraq, ali təhsil almaq məqsədilə Bakı şəhərinə getmişdir. Uşaqlıqdan həkim olmaq arzusu ilə sənədlərini Azərbaycan Dövlət Tibb İnstitutuna vermişdir. Lakin imtahanları müvəffəqiyyətlə versə də Yeganə Əfəndiyeva birinci il müsabiqədən keçməmişdir.

Bu uğursuzluğa görə həvəsdən düşməyən Yeganə Əfəndiyeva imtahanlara daha ciddi hazırlaşaraq növbəti ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra o, müəllim kimi Ağstafa şəhər 2 saylı orta məktəbində pedaqoji fəaliyyətə başlamışdır. O vaxtdan da Yeganə Əfəndiyeva bu kollektivə ürəkdən bağlanmış, bütün həyatını şagirdlərinin biologiya elminə dərindən yiyələnmələrinə, onların vətənimizə gərəkli vətəndaşlar kimi yetişməsinə sərf etmişdir.

Bəli, 28 ildən artıqdır Yeganə Əfəndiyeva sevdiyi peşənin pişvazında durur, müəllim adını yüksəltmək üçün bilik və bacarığını əsirgəmir. Onun fədakarlığı və bacarığı bu qayğıkeş müəllimə çalışdığı kollektivdə dərin hörmət, böyük nüfuz qazandırmışdır. Söz düşəndə hamı-müəllimlər də, valideynlər də Yeganə müəllimə barədə ürəkdolusu danışır, onun əsl müəllim olduğunu söyləyirlər.

Bu barədə söhbət salanda Yeganə müəllimə bildirdi ki, mənim başqa cür olmağa haqqım yoxdur. Birincisi ona görə ki, mən gənc yaşlarımdan Əziz müəllim kimi hörmətli müəllimin ailəsinə düşmüşəm. O, həmişə mənə doğma qızı kimi tövsiyələr edib, dəyərli məsləhətlər verib. İkincisi, mənim Əyyam Əyyubov kimi, Sakit İsmayılov kimi, Həmzə Hacıyev kimi müəlimlərim olub. Bu gün onlar bəziləri dünyalarını dəyişsələr də, mənə dərs deməsələr də, öyüd-nəsihətləri qulağımdadır, mənə verdikləri bilik, öyrətdikləri tərbiyə hər an köməyimə gəlir.

Yeganə müəllimə bir də onu dedi ki, mən sənətimlə fəxr edirəm, şagirdlərimin uğurlarından hədsiz sevinirəm. Hər il dərs dediyim şagirdlərimin sorağını respublikamızın ali təhsil ocaqlarından eşidəndə ürəyim dağa dönür, özümü dünyanın ən xoşbəxt adamı hesab eləyirəm. Təkcə bu il mənim dörd şagirdim yüksək balla Tibb Universitetinə daxil olublar, həm də pulsuz təhsil almaq şərtilə. Rayonda ən yüksək bal toplayan (637) Nəzrin Həsənli mənim yetişdirməmdir. Bu nailiyyətlər mənə bu yolda çəkdiyim bütün əziyyətləri unutdurur, ən xoşbəxt müəllim kimi fəxr edirəm.

Təhsilin inkişafındakı yorulmaz fəaliyyəti dəfələrlə yüksək mükafatlara layiq görülmüşdür. O, ayrı-ayrı illərdə Respublika Təhsil Nazirliyinin, rayon icra hakimiyyətinin fəxri fərmanlarına layiq görülmüşdür.

2013-cü ildə isə Respublika Prezidenti İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşdür. Yorulmaq bilməyən müəllimin arzu və diləklərlə dolu sinəsini bəzəyən "Əməkdar müəllim" nişanı isə Yeganə Əfəndiyevanın gərgin pedaqoq əməyinə verilən ən yüksək qiymətdir.

"Əməkdar müəllim" haqqında bu yazıma Ağstafa şəhər 2 saylı məktəbin direktoru Vəfa Tağıyevanın sözləri ilə yekun vurmaq istəyirəm:

-Yeganə müəllimə bacarıqlı müəllim olmaqla bərabər sevimli övlad, gözəl həyat yoldaşı, əsl ana, ləyaqətli iş yoldaşı, sədaqətli qonşu və etibarlı rəfiqədir. O, şagirdlərini doğma balası kimi sevir, hamısına qayğı və diqqətlə yanaşır. Xoşbəxt ana kimi onun iki övladı-oğlu və qızı ilə öyünməyə tam haqqı vardır...

Firdovsi Heydərli,
Rayon Ağsaqqallar Şurasının sədri

Müəllimlər təbrik edildi

Bu günlər Ağstafa Regional Mədəniyyət İdarəsinin tabeçiliyində fəaliyyət göstərən musiqi məktəbləri kollektivlərin və bir qrup mədəniyyət işçilərinin iştirakı ilə konfrans keçirilmişdir. Heydər Əliyev Mərkəzində keçirilən tədbiri giriş sözü ilə açan Regional İdarəsinin rəisi Vüqar Qədirov Beynəlxalq Müəllimlər günü münasibətilə bütün müəllimləri təbrik edərək onlara çətin və şərəfli işlərində uğurlar arzuladı. V. Qədirov respublikada təhsilin inkişafından, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərdən ətraflı danışdı. Natiq həmçinin ölkəmizdə təhsil sahəsində aparılan dövlət siyasətindən söbət açaraq bildirdi ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən təhsil islahatları, qəbul olunan dövlət proqramları, Azərbaycan Respublikasının vitse-prezidentii Mehriban xanım Əliyevanın gördüyü işlər hər bir müəllim üçün stimul yaradır.

Tədbirdə mədəniyyət işçiləri ilə yanaşı idarənin KİV və sosial şəbəkələrlə iş üzrə məsul əməkdaşları iştirak edirdilər.

Tədbirin sonunda regional idarənin təşkilatçılığı ilə keçirilmiş məktəblərarası müsabiqələrdə fərqlənmiş, şagirdləri respublika müsabiqələrində layiqli yer tutmuş müəllimlər Fəxri Fərmanla təltif olundular.

Payızlıq səpinə başlanıldı

Havaların əlverişli keçməsi payızlıq əkin-səpin işlərinin mütəşəkkil aparılmasına yaxşı imkan yaratmışdır. Cari ildə təsərrüfat işlərini uğurla başa vuran kənd əməkçiləri qarşıdan gələn ildə də bol məhsul əldə etmək üçün böyük həvəslə işə başlamış, payızlıq əkini vaxtında başa çatdırmışlar. Ötən dövrdə rayonun kəndlərində 10 min hektar sahədə payızlıq əkinlər üçün şum qaldırılmış, səpinə hazırlıq işləri tam yekunlaşmışdır.

Cari mövsümdə rayonda 1800 hektar sahədə arpa səpilməsi planlaşdırılmış və ötən dövrdə 100 hektardan çox sahəyə arpa səpilmişdir. Bu il həmçinin rayonda 8200 hektar sahəyə buğda səpilməsi nəzərdə tutulmuşdur.

Payızlıq səpinə rayonun Dağkəsəmən, Pirli, Qırlı, Eynallı, Qıraq Kəsəmən, Poylu kəndlərində daha mütəşəkkil hazırlıq işləri görülmüş və yaxın günlərdə həmin kəndlərdə səpinin tam başa çatdırılması gözlənilir.

Tarlalardan daha çox məhsul əldə edilməsi üçün digər işlər də diqqət mərkəzində saxlanılmışdır. Rayonun Dağkəsəmən kəndində mineral, gübrə satışı təşkil olunmuşdur. Gübrə alan fermerlər həmin gübrənin lazım olan yerə çatdırılması üçün satışı təşkil edən təşkilat tərəfindən texnika ilə də təmin ediləcəkdir. Daşınma xərci isə dövlət hesabına ödəniləcək .

Hazırda kəndlərdə payızlıq səpin işləri uğurla davam etdirilir.

İdmançılarımız bir qızıl, bir gümüş, bir bürünc medal qazandılar

Bu günlər Bakı şəhərində Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun 50 illik yubileyinə həsr olunmuş karate üzrə "Olimpiya ümidləri" Beynəlxalq karate turniri keçirilmişdir. Turnirdə Özbəkistan, Türkmənistan, İran, Gürcüstan, Türkiyə və Ukraynadan gələn 800-ə yaxın idmançı qələbə uğrunda mübarizə aparmışdır.

Həmin idmançılar arasında müxtəlif yaş və çəki dərəcələrindən olan karateçilərimiz də iştirak etmişlər. 7 yaşlı karateçimiz Zamiq Kərimli yarışda bütün rəqiblərinə qalib gələrək qızıl medala layiq görülmüşdür. Bundan başqa 9 yaşlı idmançımız Nurlan Məhərrəmli gümüş, 13 yaşlı idmançımız Çıraqov Ranar bürünc medal almışlar. Bu möhtəşəm yarışda rayonumuzu təmsil edən və yüksək mükafatlar qazanan idmançılarımızı təbrik edir, onlara daha böyük uğurlar arzulayırıq.

Namiq Həsənov,
məşqçi

ELAN

Azərbaycan Respublikasının Daxili İşlər Naziri general polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari ilin oktyabr ayının 27-də Gəncə şəhərində bölgə üzrə vətəndaşların qəbulunun keçirilməsi nəzərdə tutulur.

Vətəndaşlar Daxili İşlər Orqanlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə Ağstafa rayon polis şöbəsində qəbula yazıla bilərlər.

Əlaqə nömrəsi:
Tel- 050-358-09-49

Üzümçülüyə diqqət artırılır

Bir qədər keçmişə qayıtsaq görərik ki, Ağstafa sözün əsl mənasında üzümçülük rayonu kimi tanınmış və bu sahədə çox böyük uğurlar əldə olunmuşdur. Bir vaxtlar rayonun ərazisində beş böyük üzüm qəbulu məntəqəsinin və şərab emalı zavodunun olması bunu aydın şəkildə əks etdirir.

Lakin sovet imperiyasının süqutundan sonra bu gəlirli sahə tamamilə diqqət mərkəzindən kənarda qalmış, şərab emalı zavodları dağıdılmış, üzüm bağları məhv edilmişdir.

Bütün bunlara baxmayaraq, bölgə rəhbərliyinin göstərişinə əsasən son dövrlər başqa regionlarda olduğu kimi, Ağstafada da üzümçülüyün bərpasına, bu gəlirli sahənin inkişaf etdirilməsinə diqqət artırılmışdır. Bu gün rayonun ərazisində 476 hektar üzüm bağı sahəsi vardır ki, onun 410 hektarı bar verəndir.

Ötən dövrdə üzüm bağlarından məhsulun itkisiz yığılması təmin olunmuş və hər hektardan 18 sentnerdən çox məhsul tədarük edilmişdir.

Rayonun Pirli, Poylu, Həsənsu kəndlərində və Vurğun qəsəbəsində daha çox üzüm bağı sahəsi mövcuddur. Üzümçülüyün bərpası işinə digər kəndlərdə də diqqət artırılır. Təkcə bu il rayonun ərazisində xeyli sahəyə üzüm tingləri basdırılmış və həmin sahələrə aqrotexniki qaydada qulluq göstərilməsi davam etdirilmişdir.

Etibarsız sayılır

Qarahəsənli kənd sakini Mamedov Hümbət Xıdır oğlunun adına olan Torpağa mülkiyyət hüququna dair JN 71 nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Ağstafa şəhər sakini, mərhum Rzayev Xaliq Məmməd oğlunun adına olan Torpağa mülkiyyət hüququna dair JN 62F nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Ağstafa rayonu Köçəsgər kəndində Mustafayev İlham Şərif oğlunun adına olan Torpağa mülkiyyət hüququna dair JN 1396 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

108 saylı Ağstafa Dairə Seçki Komissiyası tərəfindən İbrahimov Məhərrəm Cəlil oğlunun adına verilmiş 36/6 saylı vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Həsənsu kənd sakini Əsgərova Sürəyya Ramazan qızının adına olan Torpağa mülkiyyət hüququna dair JN-82F nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Ağstafa şəhəri Qaçaq Kərəm küçəsi 21 nömrəli evdə yaşayan Bilalov Elxan Kamal oğlunun adına verilmiş 690 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Allah rəhmət eləsin!

İbrahim Əliyev, Xasay Rəhimov, Ənvər Hacıyev orta məktəbdə bir sinifdə oxumuş

Vidadi Həsənovun

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, mərhumun ailəsinə, yaxın qohumlarına dərin hüznlə başsağlığı verirlər.

***

Şahvələd İsmayılov yaxın dostu Rafiq Həsənova, qardaşı

Vidadi Həsənovun

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

***

Ağstafa Kommunal Müəssisələri Kombinatının işçiləri müəssisənin rəhbəri Taleh Həsənova, qaynatası

Vidadi Həsənovun

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR:
İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
"Ağstafa" qəzetinin jurnalist kollektivi
Şəadətnamə № 308

Redaksiya heyəti
L.Eyyubova, L.İsayeva, K.Abbasov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan:
Ağstafa şəhəri,
Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000